**Nailə Natiq qızı HÜSEYNLİ**
Qərbi Kaspi Universiteti,
Magistrant, hüquq psixologiyası
Naxçıvan Dövlət Universiteti, hüquqşünaslıq məzunu
E-mail: naila.huseynn@gmail.com

# YENİYETMƏLƏRDƏ HÜQUQAZİDD DAVRANIŞIN FORMALAŞMASINA TƏSİR GÖSTƏRƏN AMİLLƏR

**Xülasə**

Məqalədə yeniyetmələrin hüquqazidd davranışlarının formalaşması, ona təsir edən amillərdən bəhs edilir. Yeniyetmələrin cəmiyyətdə mövqeyi, onların gələcəyi, təlim-tərbiyə işi ilə bağlı araşdırmalar aparılaraq təhlillər edilmişdir.

Eyni zamanda yeniyetmələrin hüquqazidd davranışlarının cəmiyyət və gələcək üçün törətdiyi fəsadlar qeyd olunmuşdur. Sağlam cəmiyyət üçün sağlam nəsil yetişdirməyin vacibliyi məsələləri məqalədə öz əksini tapmışdır.

**Açar sözlər:** hüquqazidd davranış, amillər, cəmiyyət, yeniyetməlik yaş dövrü, gənc nəsil, inkişaf və formalaşma, zərərli vərdişlər

**UOT:** 159.9
**DOİ:** https://doi.org/ 10.54414/SKHM2157

**Giriş**

Şəxsiyyətin inkişafı və formalaşması prosesi çox mürəkkəb sosial davranış forması ilə təzahür edilir. Yeniyetməlik dövrü hər cəhətdən təhlükəli, məsuliyyətli və ağır bir dövrdür. Yeniyetmələrin hüquqazidd davranışı cəmiyyətdə rəsmi cəhətdən formalaşmamış, hər kəs tərəfindən qəbul olunan norma və qaydalara uyğun olmayan, qeyri-formal olan davranış formasıdır.

"Hüquqazidd davranış" normal olmayan və normadan kənar hesab edilən ifadələri ilə eynilik təşkil edir. Cəmiyyət üzvlərinin mövcud, formalaşmış və əxlaqi-mədəni dəyərləri, davranış norma və qaydalarını pozaraq, zidd hərəkət etməsi nəticəsində bəşəriyyətin qəbul edilən ictimai-mədəni və sosial qaydaları pozulmuş olur.

Bu qaydalara müxtəlif yaş təbəqəsinin insanları əməl etməyə bilir. Lakin yeniyetməlik yaş dövrü təhlükəli, təlatümlü və keçid dövrü hesab edildiyindən hüquqazidd davranışların pozulması halları bu dövrdə daha çox meydana çıxır. Bu dövr fizioloji, ictimai və psixoloji cəhətdən davranışların müəyyən cəhətlərdən fərqli keçdiyi dövrdür. [2]

**Əsas hissə**

Cəmiyyətin özünəməxsus yaşayış norma və qaydalarına əməl olunmaması, onların pozulması hüquqazidd davranış hesab edilir və bu asosial davranış və yaxud sosial pozuntu adlanır. Hər bir cəmiyyətdə dəyərlərə, norma və qaydalara, adət-ənənələrə hörmət edərək, onları pozmadan yaşamaq vacib məsələlərdən hesab olunur. Lakin qaydalara əməl etməyən, onu pozan insanlar hər zaman vardır və olacaqdır.

Yeniyetmələrdə hüquqazidd davranışların meydana gəlməsi eyni dövrlərdə eyni tərzdə olmur. Bunun səbəbləri ailədən, mövcud mühitdən, düzgün olmayan vərdişlərdən, yanlış istiqamətləndirilməkdən və ən əsas da zəif xarakterə sahib olmaqdan irəli gəlir. Əgər ailədə yeniyetmənin fikir və düşüncələrinə əhəmiyyət verilmirsə, "Sən danışma", " Sənə aidiyyatı yoxdur", "Sənlik deyil" və bu kimi digər ifadələr işlədilirsə, təbii ki, yeniyetməyə təsir göstərir, onu özünə inamsızlığa, özünəqapanmaya, həyatda heç nəyi bacarmadığına və heç zaman öz fikrini ifadə edə bilməyən birinə çevirir.

Bunun nəticəsində də yeniyetmə zəif hallarda və müəyyən məqamlarda səhv addım ataraq, sosial hüquqi qaydaları pozmuş olur. Onlar özlərini ifadə

etmək üçün, zəif olmadıqlarını göstərmək üçün qeyri-normal yollara əl atır, nəticədə o ya cinayətkar, ya narkoman, ya da ki, səfil həyat keçirən birinə çevrilir.

Yeniyetmələrdə yarana biləcək hüquqazidd davranışların aspektləri müxtəlif olur. Bunlar müəyyən səbəblərdən yarana bilər. Uşaqlıqdan əmələ gələn, müxtəlif səbəblərdən yaşanan travmalar, ətraf mühitdə baş verən müəyyən xarakterli hadisələr, şəxsin özünün iradəsindən və digər amillərdən irəli gəlir. Ailənin aşıladığı tərbiyə, mədəniyyət, yeniyetmənin aldığı təhsil, dünyagörüşü və bu kimi xüsusiyyətlər də əsas götürülür. [5]

Şəxsiyyətin inkişafı üçün, əsasən də yeniyetmələrin formalaşması baxımından sosial məhsuldarlıq, yaradıcılıq xüsusiyyətləri, iradə, dözüm, emosionallıq, cəmiyyət içərisində mövqeyə malik olmaq, hər kəs tərəfindən qəbul edilmiş normativ davranışlar və onlara riayət olunması kimi amillər də mühüm xarakter daşıyır.

Son zamanlarda uşaq və yeniyetmələrin hüquqazidd davranış və rəftarlarının baş verməsi, cəza və cinayətlərə cəlb olunması halları daha geniş yayılmışdır. Fərdi inkişaf, bacarıq və qabiliyyətlər, xeyirli və zərərli vərdişlər, ünsiyyətdə olduqları ətraf mühit, sosial qruplar, ailənin iqtisadi vəziyyəti, valideynlərarası münasibətlər, övladlar arasında qoyulmuş ayrıseçkilik və bu kimi faktorlar yeniyetmələrin hüquqazidd davranışlarının yaranmasına zəmin ola bilər.

Belə faktorlar nəticəsində bu və ya digər cəhətdən əqli və zehni düşüncələrin formalaşdığı bir zamanda yeniyetmələr tez haldan çıxırlar, özlərinə hakim ola bilmirlər və bu da yanlış addımlar atmağa gətirib çıxarır. Onlar bu və ya buna bənzər ruh hallarında olduqda gərginlik yaşayır, müxtəlif hüquqazidd, qadağan olunmuş hərəkətlər edir, hətta cinayətlər belə törədə bilərlər. [8]

Yeniyetməlik yaş dövrü elə bir dövrdür ki, onlar istənilən an istənilən hərəkəti görməyə qadirdir, bunun nə ilə nəticələnəcəyini belə düşünmürlər. İstər məktəbdə, istərsə də ailədə müəllimlər və böyüklər onların fizioloji yaş dövrünü nəzərə almalı, onlara daha yumşaq, mülayim yanaşmalı, fikirlərinə dəyər verməlidirlər. Əks təqdirdə onlar həyat üçün təhlükəli olan bəzi zərərli vərdişlərə qurşanır, özlərini bu baxımdan haqlı hesab edirlər, heç kəsin onları düşünmədiklərini hesab edirlər və bu yolu seçdiklərini özlərinə haqq qazandırırlar.

Son illərdə yeniyetmələrdə davranış pozuntuları son dərəcə aktual problemə çevrilmişdir. Onların bəzi patoloji hal formaları, bizim dövrdə müşahidə olunan sürətli fiziki inkişaf və cinsi yetkinliklə şərtlənir. Müasir sosial həyat yarım əsr bundan qabaqkına nisbətən yeniyetmənin sinir sisteminə başqa cür təsir göstərir.

Gündəlik həyatda baş verən hadisələr, mənfi hallar və vəziyyətlər yeniyetmələrin psixologiyasına çox mənfi təsir edir. Elə olur ki, bu hadisələr yeniyetmələrin psixologiyasına pis dərəcədə təsir etdikdə hətta intihara da gətirib çıxarır. Ona görə də yeniyetmələrin valideynləri çox diqqətli olmalı və övladlarına daima nəzarət etməlidirlər.

Yeniyetməlik dövründə bir sıra psixoloji baxımdan yeni maraqlar yaranır və formalaşır. Şəxsiyyətin formalaşması və inkişafı üçün əsas psixoloji amillər vardır. Bunlardan biri də böyümək, yetkin olmaq, sərbəst olmaq, etibar qazanmaq və bacarıqlarına inanaraq hərəkət etmək kimi xüsusiyyətlərdir. Yeniyetmələrdə bəyənil-mək, təriflənilmək, cəmiyyət tərəfindən təqdirəla-yiq görülmək, sosial fəallıq göstərmək kimi hallar özünü göstərir. Bunlar yeniyetmələrin şəxsiyyət və mənlik anlayışlarına müəyyən dərəcədə rol oynayır. [3]

Bəzi gənclər olur ki, düzgün olmayan hərəkətlər edirlər, valideyn tərbiyəsini unudurlar. Valideynlər və yeniyetmələr arasında münasibətlərin daima tənzimlənməsi lazımdır. Tərbiyə prosesində yeniyetmələrin valideynləri onlarla həm diqqətli rəftar etməli, həm də tərbiyə prosesində ciddi olmalıdır. Eyni zamanda çox təzyiq nəticəsində yeniyetmə əks rəftar göstərə bilirlər. Bu zaman yeniyetmələrlə danışıqlar aparılmalı, onların fikirlərini dinləmək və aydın izah etmələrinə imkan vermək lazımdır. Çünki uşaq və yeniyetmələri dinləmək pis haldır. Bunun nəticələri ağır ola bilər.

Yeniyetmə və valideyn arasında məlumat və tərbiyəverici söhbətlər aparılmalı, onların fikirlərinə əhəmiyyət vermək lazımdır. Bəzən böyüklər tərəfindən anlaşılmazlıq və təzyiqlər yeniyetmələrdə özünəqapanma və özünəinamsızlıq halları yaradır və bunun ağır nəticələri yeniyetmələri intiharlara vadar edir. Son zamanlar çox təəssüflər olsun ki, belə hallar çox yayılmışdır. Gündəlik həyatda ailədə hər iki valideynin öz vəzifə və öhdəliklərini düzgün yerinə yetirməməsi

yeniyetmələrdə xarakter və xüsusiyyətlərinin pozulmasına, korlanmasına, eyni zamanda mənfi istiqamətlərə yönəlməsinə gətirib çıxarır. [6]

Bəzi ailələrdə atanın və ya ananın rolu böyük olur. Adətən qızların həssas və mənəvi cəhətdən zəngin şəxsiyyət kimi formalaşmasında atanın rolu böyük olur. Eyni zamanda oğlanların da şəxsiyyət kimi formalaşması və inkişafında ananın rolu mühüm rol oynayır. Bu baxımdan ailə bir tamlıq, vəhdət və bütövlük təşkil etməlidir ki, bu nüans özünü göstərə bilsin. Ümumiyyətlə, övladla valideynlər arasındakı münasibət tənzimlənməli, onlar arasında ortaq nöqtələr və tərəflər meydana çıxarılmalıdır.

Yeniyetmələr kimdir? Əlbəttə bizim sabahımız və gələcəyimizdir. Düzgün bünövrəsi qoyulmuş bina nə qədər möhkəmdirsə, düzgün yetişdirilmiş yeniyetmələrin də həyata baxışı o qədər güclü və sağlamdır. Təbii ki, sağlam düşüncəli gənclər vətənin gələcəyi, sütunu və dayağıdır. Bütün bunların hamısının başında da düzgün tərbiyə və istiqamətləndirmək dayanır. Ona görə də istər dövlət, istər cəmiyyət daim yeniyetmələrə nəzarət etməli, onların qayğısına qalmalı və bu ruhla böyümələrinə şərait yaratmalıdırlar.

Yeniyetməlik dövründə hədsiz dərəcədə qadağalar və cəzalar verilməsi doğru deyildir. Bu onların birbaşa psixoloji şüuruna mənfi təsir göstərir. İstər-istəməz bu onlarda özünəinamı və özgüvəni itirmələrinə səbəb olur. Onlar özlərini belə halda pis hiss edirlər, satılırlar və inamlarını itirirlər, cəmiyyətdən təcrid olunmuş hesab edirlər. Yeniyetmələrin bilik, bacarıq və qabiliyyətlərinə inamsızlıq etmək, şübhə ilə yanaşmaq doğru deyil. Hər hansı bir cəzanı onlar öz şəxsiyyətlərinə hörmətsizlik, alçaldıcı hərəkət və təhqir hesab edirlər. Bu da valideynlər ilə yeniyetmələrin münasibətlərinin mənfi yönə getməsinə gətirib çıxarır.

Bəzi valideynlər hətta dözə bilməyib həm fiziki, həm də psixoloji şiddət tətbiq edirlər. Şiddət və zorakılıq heç də çarə yolu deyil. Valideynlər nə qədər çox zorakılıq edərlərsə, sərt hərəkət göstərərlərsə, yeniyetməıər də bir o qədər çox aqressiv olarlar. Çünki yeniyetməlik elə bir yaş dövrüdür ki, həmin vaxtlarda onlara daha tədbirli, ehtiyatlı yanaşmaq lazımdır. Nə qədər çox mənfi təsir göstərilərsə, bir o qədər də yeniyetmələrdə istər-istəməz valideynlərinə, məktəbə, insanlara və cəmiyyətə qarşı nifrət hissi yaranmış olur, həyata baxışı dəyişir və etdiyi bütün əməl və hərəkətləti heyif alırmış kimi edirlər. Bu da onları düzgün olmayan yola gətirib çıxarır və xoşagəlməz nəticələrə səbəb olur.

Yeniyetmələr adətən müasir dövrdə özünü başqaları ilə müqayisə edirlər. Ətrafda imkanı yetəri qədər olan başqa ailələrin övladları ilə nisbətən daha az imkanı olan və ya imkansız ailənin övladları arasında fərqlər yaranır, müqayisələr baş verir. Bu, əlbəttə, düzgün yanaşma deyil. Əsas ailənin verdiyi tərbiyə və təhsildir. Bunu bəzi yeniyetmələr başa düşmür, düzgün nəticə çıxarmır. Lakin valideynlər belə halda yeniyetmələri düzgün yönləndirməli və həyatın hər cür halını başa salmalıdırlar. Yeniyetmələrə izah etməlidirlər ki, bu həyatda hamı öz həyatını yaşayır, insan özü nəyə qadirdirsə, onunla kifayətlənməməli, daima axtarışda olmalı, öz üzərində çalışmalı, daha çox nailiyyətlər əldə etməlidir. Bununla da öz-özünə sübut etməlidir ki, maddiyyat baxımından yüksək olanlar heç də bu vəziyyətə asan yolla gəlməmişdir. Hər hansı bir nöqtəyə gəlmək üçün halal zəhmətlə çox çalışmaq lazımdır.

Yeniyetmələrə izah etmək lazımdır ki, sosial şəbəkələrdən lazımsız şəkildə istifadə etməkdənsə, ondan daha səmərəli istifadə edərək elmin, texnikanın daha dərinliklərinə baş vuraraq böyük nailiyyətlər əldə etmək olar. Ona görə də istər məktəbdə, istər cəmiyyətdə, istər ailədə yeniyetmələri bu ruhda tərbiyələndirmək gərəkdir. Yaşadığımız dövr süni intellekt dövrüdür. Süni intellekti öyrənməklə istənilən elm sahəsinə onu tətbiq edərək onu həyata keçirmək məhz yeniyetmələrin, gənclərin işidir. Çünki onların düşüncə tərzi yaşlı təbəqənin fikirləri ilə eyni deyil. Yəni yaşlı nəslin nümayəndələrinin təcrübələrindən yararlanaraq onları daha müasir şəkildə hazırlayıb yeni formada ərsəyə gətirib xalqın istifadəsinə vermək lazımdır. İnsanlar bundan faydalanmalıdır. Belə bir gənc və yeniyetmələrə ölkənin daim ehtiyacı var.

Yeniyetmələrdə hüquqazidd davranışın təzahürlərinə mürəkkəb amillər sistemi təsir göstərir. Yeniyetmə davranışının tənzim olunmasında mürəkkəb xarici amillər, daxili psixoloji təsirlər nəzərə alnmalıdır. Yeniyetmənin hüquqazidd davranışı yaxın adamları ilə, həmyaşıdları ilə münasibətlərinin pozulması ilə də əlaqədardır. Bu zaman münasibətlərin xarakter və xüsusiyyətləri ilə yanaşı, onun pozulması həddi də mühüm hesab edilir. Belə pozulan münasibətlərin bərpa

edilməsi, həyat əhəmiyyətli olması, yeniyetmənin onu düzgün təhlil etməsi, qiymətləndirməsi imkanları da burada mühüm rol oynayır.

Məlumdur ki, belə halların yaranmasında insanın fərdi xüsusiyyətləri ilə bərabər həm də yaş xüsusiyyətləri mühüm rol oynayır. Bu səbəbdən də yaş xüsusiyyətlərilə əlaqədar olaraq hüquqazidd davranış təzahürləri yeniyetmələrdə özünü daha kəskin surətdə göstərir. Bu yaş dövründə asosial davranış daimi, tam köklü xarakter almır. Çox vaxt müvəqqəti və keçici səciyyə daşıyır.

Pis vərdiş kimi narkotik və istifadəsi qadağan olunmuş zərərli maddələrə aludəçilik də yuxarıda sadaladığımız səbəblərdən yaranır. Bunlar istifadə zamanı yeniyetmələrin orqanizmində asılılıq yaradaraq və daha çox bu maddələri qəbul etmək istəyi günü-gündən artır, nəticə etibarilə bu da hüquqazidd əməllər törətməyə gətirib çıxarır. [4]

Bəzən ailənin yaşam tərzi, həyatda tutduğu mövqe övladların da yaşayış tərzinə mənfi və yaxud müsbət təsir göstərir. Əgər təhsil aldığı məktəbdə sinif yoldaşlarının arasında imkanlı ailənin övladları təhsil alırsa, bu da yeniyetmənin özünü onlarla ayaqlaşmaq istəməsi səbəbilə valideyn-övlad arasında böyük münaqişələrə səbəb olur.

Bu zaman yeniyetmə nə yolla olursa, olsun çoxlu pul əldə etmək istəyir. Bu da xırda xuliqanlıq, oğurluq hadisələrinin törədilməsinə gətirib çıxarır. Belə yeniyetmələr təkcə özlərinə deyil, ətrafdakılara da pis təsir edirlər. Özlərindən qat-qat zəif olan uşaqları belə işlərə cəlb edirlər, onlardan istifadə edirlər, onları spirtli içkilər, siqaret və tütün məmulatları almağa məcbur edirlər. [1]

Alkoqollu içkilər, siqaret və narkotik vasitələrin tərkibindəki yüksək dozada olan maddələr onların beyninə təsir edir, həddindən artıq aqressivlik yaradır. Bu aqressiya da onları istər ailədə, istər məktəbdə həmyaşıdları arasında nalayiq hərəkətlər etməsinə, dalaşmağa, qeyri-etik, vulqar ifadələr işlətməsinə gətirib çıxarır. Bəzən də bu ağır nəticələr verir. Beləliklə, öz çevrəsində olan yeniyetmələri, balaca uşaqları da öz tərəflərinə çəkir, onları da zəhərləyərək həyatlarını məhv edirlər.

Təbii ki, belə yeniyetmələr tədricən məktəbdən, təhsildən yayınırlar, demək olar ki, oxumaq, təhsili davam etdirmək kimi fikirlər onlar üçün arxa plana keçir, tufeyli həyat keçirməyi daha üstün tuturlar.

Yuxarıda sadaladığımız kimi buna ilk olaraq uşaqlıqdan ailədə yaranmış qeyri-səmimi münasibət, diqqətsizlik, inamsızlq, ailənin sosial və iqtisadi durumu, ailədə yaranmış bir sıra problemlər öz təsirini yeniyetmələrə göstərir və onlar bir növ ailədən uzaqlaşaraq sadaladığımız hüquqazidd əməllərə qurşanırlar.

Ona görə də məktəb və valideyn arasında daim sıx əlaqə yaradılmalı, bəzi ailələri maarifləndirmək məqsədilə onlarla övladlarının gələcəyini qurmaq üçün xüsusi müzakirələr aparmalı, valideyn-övlad arasındakı anlaşmazlığı necə aradan qaldırmaq barədə keçirilən iclaslarda onların iştirakı təmin olunmalıdır. Deməli, ailə və məktəb işi bir-biri ilə sıx qarşılıqlı əlaqədə olmalı və vəhdət təşkil etməlidir. [9]

Bəzən həyatda baş verən çatışmazlıqlarda uşaqları da tam olaraq günahlandırmaq olmaz. Çünki yaşadığımız mürəkkəb zamanda ətrafda baş verən bütün dəyişikliklər birbaşa olaraq onların şüuruna, psixologiyasına təsir göstərir. Həyat düz müstəvi deyil ki, hər şey mükəmməl, tam olsun.

Qazandıqları müvəffəqiyyət, uğradığı uğursuzluqlar, ürəyində tutduğu arzulara çatmamaq, istədiklərini əldə edə bilməmək və sonda ailənin bunları yerinə yetirə bilməməsi yeniyetmələrdə stress və depressiyaya gətirib çıxarır. [3] Bu zaman onlarda özünəqapanma halları baş verir, bundan qurtula bilmədikdə çarəni intiharda, özünə qəsd etməkdə görürlər.

Lap uşaqlıqdan öncə valideynlər, sonra da müəllimlər uşaqlara həyatda hər şeyin çox asanlıqla əldə edilə bilməyəcəyi haqqında fikirlər aşılamalıdırlar. Ona görə də valideynlərin bir nömrəli qarşılarında duran vəzifələrdən biri də övladı həyata hazırlamaqdır. Qarşıda onları hansı çətinliklər gözləyir və bu çətinliklərin necə aradan qaldırmağı öyrətməlidirlər. Yeniyetmə həyatda özünü tapmalı, özünü dərk etməli və anlamalıdır. Atılmış hər bir səhv addım onların həyatları bahasına başa gələ bilər. [11]

Hüquqazidd amillərə yeniyetmənin qeyri-ünsiyyətcil olması da səbəb ola bilər. Bu zaman onun həyata baxışı da dəyişir, özünəqapanma halları baş verir, heç kimlə hesablaşmır, istədiklərinə nail olmadıqda hər kəsi günahlandırır, bir növ özünü cəmiyyətə yararsız hesab edir. Bunun da nəticəsi heç ürəkaçan olmur.

**Nəticə**

Belə bir nəticəyə gəlmək olar ki, yeniyetmələrin hüquqazidd davranışlarının yaranması və formalaşmasına təsir göstərən amillər özünü müxtəlif formada təzahür etdirir. Cəmiyyət tərəfindən birmənalı şəkildə qarşılanmayan hərəkət və davranışların təkcə yeniyetmələrin deyil, eləcə də bütün yaş dövründə olan insanlar tərəfindən edilməsi düzgün qarşılanmır. Odur ki, gələcəyimiz olan yeniyetmələrin təlim-tərbiyəsi ilə düzgün və keyfiyyətli şəkildə məşğul olunmalıdır.

Yeniyetməlik dövründə yeniyetmələrin davranış və hərəkətlərində kəskin şəkildə özünü göstərən ziddiyyət və uyğunsuzluqlar olur. Bunlar yeniyetmələrin emosional, iradi xüsusiyyətlərində və münasibətlər sistemində öz əksini tapır. Yaş xüsusiyyətlərindən irəli gələn psixoloji problemlər və onların yaratdığı təzahürlər yeniyetmələrdə çox ağır nəticələrə səbəb olur.

Hüquqazidd davranışın təzahürləri sosial-iqtisadi və sosial-psixoloji amillərin təsirindən daha çox yaş xüsusiyyətlərinin və şəxsiyyətlərarası münasibətlərin, valideyn-övlad, müəllim-şagird, o cümlədən, yeniyetmə-yeniyetmə münasibətlərinin lazımi səviyyədə olmaması amillərində əks olunur. Buradan belə bir qənaətə gələ bilirik ki, valideynlər, ətraf mühit və yeniyetmələrə təsir edən hər bir amil onların münasibətlər sisteminə, rəftar və davranışlarına birbaşa təsirini göstərir.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Bayramov Ə, S. Əliyev B H. Huquq psixologiyası. Bakı. 2012. Səh.318.

2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya, Ali məktəblər üçün dərslik, Bakı "Çinar-Çap" 2002. 626 s.

3. Cavadov R.Ə., Qarayev R.M. Yeniyetmələrin hüquqa zidd davranışının bəzi psixoloji məsələləri. Bakı, 2000, S.17

4. Cavadov R.Ə., Tağıyeva G.B. Ekstremal şəraitlərdə psixoloji xidmət (Ali məktəblər üçün dərslik), Bakı, 2006.

10. Cabbarov R.V Hüquq psixologiyası ( B.H. Əliyev və K.R. Əliyeva ilə müştərək) Bakı ;2012

11.Меджидова С.М. Социальнопсихологические типы

5. Əliyev B.H. Cinayət və mülki prosesdə məhkəmə-psixoloji ekspertizası problemləri, Bakı, Azərnəşr, 1996, 200 s.

6. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. İkinci nəşr. Bakı, 2003.

7. Qədirov Ə.Ə. Yaş psixologiyası. Ali pedaqoji məktəb tələbələri üçün dərs vəsaiti. Bakı, " Maarif" nəşriyyatı. 2002. 382 s.

8. Quliyev E.M. Pedaqoji psixologiyanın əsasları. Bakı, 2013.

9. Psixologiya. Ali pedaqoji məktəblərin bakalavr pilləsi tələbələri üçün dərslik. Prof. S.İ.Seyidov və prof. M.Ə.Həmzəyev.

несовершеннолетниих преступников, Л., 1985, 217с.

**Naila Natig gizi HUSEYNLİ**
Western Caspian University,
Master's, student majoring in law psychology,
Nakhchivan State University, lawyer graduate
E-mail: naila.huseynn@gmail.com

**FACTORS INFLUENCING THE FORMATION OF DELEGAL BEHAVIOR IN ADOLESCENTS**

**Summary**

The article deals with the formation of juveniles' illegal behavior and the factors affecting it. The position of teenagers in the society, their future, and the research on education and training were analyzed.

At the same time, the consequences of the illegal behavior of teenagers for the society and the future were mentioned. The importance of raising a healthy generation for a healthy society is reflected in the article.

**Key words:** Delinquent behavior, factors, society, adolescence period, young generation, development and formation, harmful habits

**Наиля Натиг гизи ГУСЕИНЛИ**
Западно-Каспийский Университет,
Магистр, студент по специальности юридическая психология,
Нахчыванский государственный университет, выпускник юридического факультета
E-mail: naila.huseynn@gmail.com

## ФАКТОРЫ ВЛИЯЮЩИЕ НА ФОРМИРОВАНИЕ ДЕЛЕГАЛЬНОГО ПОВЕДЕНИЯ У ПОДРОСТКОВ

**Резюме**

В статье рассматривается формирование противоправного поведения несовершеннолетних и факторы, влияющие на него. Проанализировано положение подростков в обществе, их будущее, а также исследования в области образования и обучения.

При этом были упомянуты последствия противоправного поведения подростков для общества и будущего. В статье отражена важность воспитания здорового поколения для здорового общества.

**Ключевые слова:** делинквентное поведение, факторы, общество, подростковый период, поколение, развитие и формирование, вредные привычки

**Daxil olub:** 14.01.2025